# İdman xəbərləri

## Turun nəticələri uğurlu olmuşdur: 14 oyun, 28 qol



Topaz Premyer Liqasında 2017/18 mövsümünün ilk yarısına yekun vurulub. İlk iki dövrənin yekununa əsasən, "Qəbələ" qış fasiləsinə ötən mövsümdə olduğu kimi 2-ci pillədə yollanıb. Keçirdiyi 14 qarşılaşmada 10 qələbə qazanan, 1 heç-heçə edən həmyerlilərimiz 3 dəfə məğlub olub. İlk oyununu avqustun 12-də keçirən komandamız 114 günlük mübarizədən sonra hesabında 1 il əvvəlki qədər - 31 xalla 14 turu geridə qoyub.

"Qəbələ" 2-ci mövsümün ilk yarısında ardıcıl ən çox qol vuran komanda olub.

**«Qəbələ»**

## Alim Nəbiyevdən 2-ci qələbə

Hollandiyanın Rotterdam şəhərində kikboksinq üzrə "Glory" seriyalı növbəti turnir keçirilib.



Azərbaycanın və "Qəbələ" İdman Klubunun təmsilçisi Alim Nəbiyev "Glory 49"un iştirakçısı olub. Yarımorta çəki dərəcəsində çıxış edən idmançımız təşkilatın sabiq çempionu hollandiyalı Niki Holtskenlə qarşılaşıb. Üç raund davam edən döyüşdə rəqibini üstələyən Alim Nəbiyev hakimlərin yekdil qərarı ilə qələbə qazanıb. Bununla da "Glory" reytinqindəki xal hesabını 466-ya çatdıran Alim siyahının 6-cı pilləsində qərarlaşıb.

Xatırladaq ki, oktyabrda Fransanın Lion şəhərində yerli idmançı Cimmi Vienota qalib gələn idmançımızın Rotterdamdakı uğuru onun "Glory" seriyasında 2-ci qələbəsi olub.

**«Qəbələ»**

## Qəbələ şahmatçısı finalda

Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Təhsil» Respublika İdman Mərkəzinin (RİM) təşkil etdiyi şahmat üzrə məktəblilərin respublika çempionatının Oğuz şəhərində keçirilən zona yarışlarında Qəbələ Rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin (UGİŞM) komandası da uğurla çıxış etmişdir.

Belə ki, məşqçi-müəllim Sahib Hüseynovun yetirməsi, Qəbələ şəhər 2 nömrəli tam orta məktəbin VIII «a» sinif şagirdi Fərhad Əliyev 7 turda 5,5 xal toplamış və 15 yaş qrupunda ikinci yeri tutaraq final mərhələsinə vəsiqə qazanmışdır.

Biz Fərhadı təbrik edir, eyni zamanda bir şahmatçı kimi istedadına və potensialına bələd olduğumuzdan növbəti yarışlarda ondan daha yüksək nəticələr gözləyirik.

**Aydan HÜSEYNZADƏ,**
**Qəbələ rayon UGİŞM-nin məşqçi-müəllimi,şahmat kompozisiyası üzrə dünya çempionatının gümüş mükafatçısı.**

# Qələmə və fırçaya bağlı ömür

Arzulla Rəhimov adına Dizaxlı kənd tam orta məktəbinin giriş qapısından içəri daxil olan hər kəsi foyeni bəzəyən rəsm əsərləri valeh edir. Sənətkarlıq baxımından olduqca gözəl işlənmiş bu rəsm əsərlərinin müəllifi ömrünün 44 ilini müəllimlik sənətinə—balalarımızın savadlanmasına, maariflənməsinə və cəmiyyət içində layiqli yer tutmasına sərf edən, Yeni Dizaxlı kənd sakini Ənvər Əliyevdir. Ənvər müəllimi tanıyan, onun daxili dünyasının zənginliyinə yaxından bələd olan insanlar üçün bu rəsm əsərləri bir az sadə görünsə də, tanımayanlar üçün olduqca maraqlıdır.

Onun yağlı boya ilə işlədiyi dahi Nizami Gəncəvinin portreti, oyma üsulu ilə hazırladığı «Nizami dünyası» əsəri, Məhəmməd Əmin Rəsulzadənin portreti, «Bir kərə yüksələn bayraq bir daha enməz» məşhur kəlamı həkk olunan tətbiqi sənət əsəri, o cümlədən doğma Qəbələmizin tarixi keçmişinə həsr olunmuş «Qəbələ» stendi, Azərbaycan Uşaq Birliyinin təsis gününə dair tərtib etdiyi stend, 20 Yanvara, Qarabağ döyüşlərində həlak olmuş Dizaxlı şəhidlərinə və Milli Qəhrəman Mübariz İbrahimovun qəhrəmanlığı ilə bağlı guşələr seyr edənlərin qəlbində dərin iz buraxır. Baxdıqca hiss edirsən ki, müəllif öz əsərlərinə qərgin zəhməti ilə yanaşı ürəyini də qoyub.

Bu günlərdə yolumu bir vaxtlar Ənvər müəllimin işlədiyi, yuxarıda adını çəkdiyim məktəbdən saldım. Məktəbin direktoru Mirzəmməd Mirzəliyevlə, müəllimlərdən Ramiz Rəhimovla, Nazim Aslanovla, Novruz Babayevlə görüşüb Ənvər Əliyev haqqında ürək sözlərini mənimlə bölüşmələrini xahiş edəndə hamı bir nəfər kimi onun haqqında o qədər gözəl danışdılar ki, ürəyim fərəhdən dağa döndü. Qərara gəldim ki, onunla görüşüb söhbət edim.

Ənvər Mikayıl oğlu Əliyev 1953-cü ildə Dizaxlı kəndində anadan olub. Dizaxlı kəndində 8-ci sinfi, Şəki Pedaqoji Texnikumunu, Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirib. 44 il Dizaxlı kənd tam orta məktəbində müəllimlik edib. Hazırda təqaüddə olsa da doğma məktəbin ictimai işlərində fəal iştirak edir. Ənvər müəllim nümunəvi ailə başçısıdır, iki oğlu, iki nəvəsi var.

**Cəlil KOMRADLI.**

# Sadə peşə adamları

## Avtomobil həvəskarları razılıq edirlər

Adətən kişilərin çalışdıqları, peşələrdə işləyən qadınlara da təsadüf olunur. Haqqında söhbət açdığım Sədaqət xanım Manafova da belə bir sahədə fəaliyyət göstərir.



Sədaqət xanım 22 ildir ki, avtomobillər üçün ehtiyat hissələrinin satıldığı böyük bir mağazada satıcı işləyir. O, asanlıqla ehtiyat hissələrinin hazırlandığı ölkələri, istehsalçıları müəyyənləşdirir, alıcılara hər birinin keyfiyyəti, dözümlülüyü haqqında müfəssəl bilgilər, hissələrin texniki xüsusiyyətləri haqqında məsləhətlər verir.

Təmirçilər çox zaman seçim edərkən avtomobillərin bütün ehtiyat hissələrini çox mükəmməl tanıyan Sədaqət Manafova ilə məsləhətləşirlər.

Özünün dediyinə görə uşaqlıqdan avtomobillərə olan marağı onu bu sahəyə yönəldib. Ona bu işin hər xırdalığını, incəliyini öyrənməkdə avtomobil təmiri ustası Niyazi Alıyev dəstək olub. Sədaqət Niyazi ustanı özünə müəllim hesab edir.

O, avtomobillərin yüngül təmirinin də öhdəsindən bacarıqla gəlir. Bu, təcrübəli sürücülərə sadə bir iş kimi görünsə də avtomobilləri təmir etmək zərif cinsin nümayəndəsi olan xanımlar üçün çox çətin və məsuliyyətli bir işdir.

Biz də Sədaqət xanıma çətin və məsuliyyətli işində uğurlar arzulayırıq.

**Günel TAPDIQQIZI.**
**«Qəbələ».**




QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2018-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir

İllik abunə qiyməti 30 manat, yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


# İTMİŞDİR

Qəbələ rayonunun Tikanlı kənd tam orta məktəbinə məxsus **möhür** itdiyinə görə onu tapmış şəxslərdən xahiş olunur ki, möhürü Qəbələ Rayon Təhsil Şöbəsinə və ya Tikanlı kənd tam orta məktəbin rəhbərliyinə təhvil versinlər.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ ərazi idarəsi tərəfindən Qəbələ şəhər sakini **Hacıyev Oktay Yusif oğluna** 11 may 2011-cı il tarixdə verilmiş MA seriyalı 0204136 nömrəli (qeydiyyat nömrəsi 1911001531) hüquqların dövlət qeydiyyatı **haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 noyabr 1997-ci il tarixli 25 saylı qərarı ilə Mıxlıqovaq kənd sakini **Qafarova Söhbət Rəsul qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 243 A nömrəli (kod 40614018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Emin Ədilli, Mehrəli Mehrəliyev, Rasim Yaqubov və Əlövsət Aləmmədov ailələri ilə birlikdə

**OQTAY MÜƏLLİMİN**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbin kollektivi məktəbin direktoru **Məlahət Dadaşovaya** və müəllimləri **Almaz Seyidovaya, Məhəbbət, Sevinc, Mübariz, Gülnarə Dadaşovalara, Səbinə Alıcanovaya və Leyla Mehrəliyevaya** əzizləri

**OQTAY DADAŞOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirlər.


«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56



Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1900